AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

KULTUROLOGİYA FAKÜLTƏSİ

MUZEYŞÜNASLIQ KAFEDRASI

Bakalavr hazırlığı üçün

İXTİSASA GİRİŞ

fənni üzrə

PROQRAM

İxtisas: 050310- "Muzey, arxiv işi, abidələrin qorunması"

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən 09 sentyabr 2024-cü il tarixli 329/32-601 F/2024 əmrlə təsdiq edilmişdir

Bakı - 2024

Tərtib edən:

Elfira Hacıbaba qızı Məlikova-Qurbanova
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru, muzeyşünas alim

Elmi redaktor:

Anar Mirsəmid oğlu Ağalarzadə
tarix elmləri üzrə fəlsəfə doktoru, dosent

Rəyçilər:

İlhamə Hicran qızı Səfərova
kulturologiya üzrə fəlsəfə doktoru, dosent

Mira Arif qızı Məmmədxanova
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

İZAHAT VƏRƏQİ

Tarixin ən dəqiq və həqiqi tablosunu əks etdirən muzeylərin institutlaşdırılması böyük praktiki işin nəticəsidir. İlkin muzeylərin meydana gəlməsi, milli tarixi abidələrin qoruyaraq arxivləşdirməsi ilə əlaqədar olmuşdur. Arxivlərin yaradılması isə ölkənin ümumi tarixini qorumaq üçün əsas və ilkin mərhələdir.

Muzeylərin yaradılmasının tarixi səbəbləri və muzeyşünaslıq (muzeologiya) elminin struktur elementləri ilə tanışlıq "İxtisasa giriş" fənninin ilkin mərhələsini təşkil edir. İlkin mərhələdə, yəni I bölmədə:

1.Muzeylərin tarixi: muzeyvari təşkilatların, kabinələrin, studiyaların və nəhayət, müasir muzeylərin yaranma tarixinin öyrənilməsindən başlayaraq muzey işinin formalaşması səbəbləri araşdırılır;

2.Muzeyşünaslığın nəzəriyyəsini muzeyin praktiki fəaliyyətini və sənədləşmə işini konsepsiyasının öyrənir. Muzeyşünaslıq nəzəriyyəsinin əsas konsepsiyası muzeyin fəaliyyət strategiyasının müəyyən edilməsi üzərində dayanır. Nəzəriyyədə muzey haqda biliklər sistemi muzey işini kompleks şəkildə bir araya gətirir və muzeyin ümumi sənədləşmə nəzəriyyəsini yaradır;

3.Muzey mənbəşünaslığında muzey dəyərləri, abidələr üzərində aparılan elmi tədqiqat işlərinin nəticələrinin məcmusu öyrənilir;

4. Muzeyşünaslığın 4 struktur elementi olan tətbiqi muzeyşünaslıq anlayışı təhlil edilərək, toplanmış elmi-nəzəri biliklərin praktikada tətbiq edilməsi prosesinin real faktları dəyərləndirilir.

Muzeylərdə aparılan sənədləşmə işləri xalqın ümumi tarixinin müəyyən mühüm və dəqiq informatik hissəsini əks etdirir. Məhz muzeylərin elmi-tədqiqat müəssisəsi kimi formalaşmasının da əsas səbəbi budur.

"İxtisasa giriş" fənninin ikinci bölməsi "Muzey, arxiv işi, abidələrin qorunması" ixtisasının "arxiv işi" anlayışının öyrənilməsi mərhələsini ehtiva edir.

"İxtisasa giriş" fənn proqramının əsasında təqdim edilən mövzular muzeyşünaslıq elminin ilkin mərhələsini öyrənməklə yanaşı, ümumi arxiv işi anlayışını və abidələrin dəyərini də təhlil edərək tələbələrin nəzərinə çatdırır.

Bu fənn "Muzey, arxiv işi, abidələrin qorunması" ixtisasının bakalavr səviyyəsində təhsil alan I təhsil ili tələbələri üçün nəzərdə tutulmuşdur.

Arxivin (coğrafi xəritə üzrə) yaradılmasının tarixi səbəbləri, arxivə cəlb edilən sənədlərin elmi əhəmiyyəti, dəyəri və işə ciddi yanaşma metodları bu istiqamətdə mühazirələrin əsasını təşkil edir.

İxtisasın digər komponentini abidələr təşkil edir. Abidə ölkənin, xalqın, bəşəriyyətin maddi və qeyri-maddi sərvətinin bir hissəsi, bədii və tarixi dəyəri olan bir obyektdir. Abidə fenomeninin mahiyyətini onun xatirə, yaddaşla bağlılığı təşkil edir. Mədəni irsin bu kateqoriyasının daha populyar növləri – heykəl, statuya, büst, yazılı divar üstü lövhə, zəfər tağı, sütun və s.-dir.

"İxtisasa giriş" fənni muzey, arxiv işi, abidələr haqqında ilkin tarixi məlumatların öyrənilməsini tələb edir. Nəzəri təhlillər zamanı praktiki məqamlar da öyrənilir ki, bu da muzey, arxiv, abidələrin qorunması anlamına tam şəkildə aydınlıq gətirir.

"İxtisasa giriş" fənninin məqsədi bakalavra seçdiyi ixtisas haqqında icmal şəkilli ilkin biliklər-ixtisasın tarixi, məzmunu və perspektivləri haqqında məlumat verməkdir. Fənnin vəzifələrinə aşağıdakılar aiddir:

- elmi fənn kimi təhlil etmək;
- elmlər sistemində yerini və rolunu göstərmək;
- ***ümumi nəzəriyyəsi***nin elmi əsaslarını göstərmək;
- Arxivlərin tarixi əhəmiyyətini və elmi-tədqiqat müəssisəsi kimi əhəmiyyətini dəyərləndirmək;
- inkişafında arxivlərin rolunu qeyd etmək;
- Abidələrin funksiyaları və elmiliyini müqayisəli şəkildə təhlil etmək;
- Milli abidələrimizin müasir vəziyyəti haqda məlumatların verilməsi;

Bu fənn Əsas Təhsil Proqramı strukturunda İxtisas fənləri blokunda yerləşir. "İxtisasa giriş" fənninin ixtisas üzrə olan peşə kompetensiyaları ilə əlaqəliliyini aşağıdakı müddəalarla əsaslandırmaq olar:

FƏNNİN TƏLİM NƏTİCƏLƏRİ İLƏ İXTİSAS XARAKTERİSTİKASI VƏ PEŞƏ KOMPETENSİYALARI

Tələbə "İxtisasa giriş" fənnini mənimsədikdən sonra aşağıda qeyd edilən bilik və bacarığına yiyələnəcək:

- muzey əşyalarının təsnifatı və atribusiyasını öyrənəcək. Muzey fondlarının elmi kataloqlaşdırılması və elmi fəaliyyətini biləcək. Muzey mühafizəsinin elmi metodları, muzey kolleksiyalarının fiziki cəhətdən qorunması, onların oğurluq, vandalizm aktlarından sığortalanması haqda bilik və bacarığına yiyələnəcək, mühafizə rejimləri, muzey əşyalarının daşınması qaydalarını biləcəkdir.
- Muzey komplektləşdirilməsinin əsası kimi tarixi prosesi, hadisə və faktların sənədləşdirilməsi nəzəriyyəsini, muzey fondlarının formalaşdılmasının əsas istiqamət və prinsiplərini, toplayıcılıq fəaliyyətinin forma və metodlarını, muzey əşyalarının qeydiyyat qaydalarını biləcəkdir.
- Muzey toplularının elmi təşkili sistemini, muzey əşyalarının elmi təsnifat prinsiplərini, və ətraf mühitin zəruri təsirlərindən müdafiə qayda və üsullarını, muzey kolleksiyalarının elmi tədqiqi və təsviri metodikasını biləcəkdir.
- Tədqiqatçılıq fəaliyyətində muzey əşyaları və kolleksiyaları ilə bağlı elmi ədəbiyyat, lüğət, məlumat kitabları, kataloq və digər nəşrlərindən istifadə etməyi bacaracaqdır.
- Muzey fondlarının ilkin qeydiyyat sənədləşməsinin tərtibi vərdişlərinə, muzey əşyasının elmi təsviri metodikasına, muzey fondlarının qorunması sisteminin təşkili üsullarına, muzey fond saxlancları və ekspozisiyasında havanın temperaturu və rütubəti, işıqlandırılması göstəricilərinin ölçülməsi və nəzarəti qaydalarına yiyələnəcəkdir.

- Muzey işinin xüsusi terminologiyasından düzgün istifadə etməyi və mədəniyyət sbidələrinin atribusiyası zamanı elmi təsvir və metodiki tövsiyələr üçün terminlər lüğətindən istifadə etməklə muzey əşyasının ilkin təsvirini tərtib etməyi, muzey əşyasının tarixi və mədəni dəyəri haqqında informasiyanın qeydə alınmasını bacaracaqdır.
- Ekspozisiya işinin metodikasına, ekspozisiya sənədlərinin hazırlanması vərdişlərinə yiyələnəcəkdir.
- Muzey auditoriyasının müxtəlif kateqoriyalardan olanlar üçün ekskursiya mətnlərini və metodiki işlərin hazırlanmasını bacaracaqdır.
- Arxiv sənədlərinin komplektləşdirilməsinin əsas üsulları, arxiv sənədinin tərifi və funksiyalarını, komplektləşdirilməsinin məqsəd və vəzifələrini biləcəkdir.
- Arxiv fondlarının qorunma rejiminə nəzarət etməyi, sənədləşmə işlərinin aparılması vərdişlərinə yiyələnəcəkdir.
- Mədəni irsin müxtəlif növ və tipdən olan obyektlərinin "tarix və mədəniyyət abidəsi" statusuna keçidinin prosedur mərhələlərini biləcəkdir.

Fənnin tədrisinə 3 kredit, ümumi 45 saat (30 saat mühazirə, 15 saat seminar) ayrılmışdır.

“İXTİSASA GİRİŞ” FƏNNİNİN TƏDRİSİNƏ AYRILAN SAATLARIN MÖVZULAR ÜZRƏ PAYLANMASI

№	Mövzuların adı	Müh.	Sem.
	I BÖLMƏ **“Muzey, arxiv işi, abidələrin qorunması” ixtisasına giriş**		
1.	Muzeyşünaslıq muzey işini öyrənən elm kimi	2	
2.	Elmlər sistemində Muzeyşünaslığın yeri və rolu	2	2
3.	Muzeyşünaslıq elminin struktur elementlərinin əlaqəli təsnifatı	2	
4.	Muzey tarixinin muzeyşünaslıq aspektindən tədqiqi	2	2
5	Muzeyşünaslığın ümumi nəzəriyyəsi	2	
	II BÖLMƏ **“Arxiv” anlayışının elmi-nəzəri təhlili**		
6.	Arxivlərin tarixi əhəmiyyəti	2	2
7	Arxivlər elmi tədqiqat müəssisəsi kimi	2	
8.	İdarə və müəssisələrin arxiv-informasiya dəyəri	2	2
9.	Muzeyşünaslığın inkişafında arxivlərin rolu	2	2
10.	Muzey arxivlərinin elmiliyi	2	
	III BÖLMƏ **“Abidə” anlayışının elmi təhlili**		
11.	Abidələrin funksiyaları	2	2
	Abidələrin elmiliyi	2	
13.	Abidələrin texnologiyası	2	2
14.	“Tarix və mədəniyyət abidələri” anlayışı	2	
15.	Milli abidələrimizin müasir vəziyyəti	2	1
CƏMİ: 45 saat		**30**	**15**

“İXTİSASA GİRİŞ” FƏNNİ ÜZRƏ MÖVZULAR VƏ ONLARIN QISA MƏZMUNU

I BÖLMƏ. “MUZEY, ARXİV İŞİ, ABİDƏLƏRİN QORUNMASI” İXTİSASINA GİRİŞ

Mövzu 1: Muzeyşünaslıq muzey işini öyrənən elm kimi

XVI əsrdə “muzeoqrafiya” və “muzeologiya” terminlərinin yaranma faktları. Muzeyşünaslığın bir elm kimi meydana çıxmasının tarixi səbəbləri. Muzeyşünaslıq böyük praktiki bazaya əsaslanan və dünya elmləri sistemində əvəzsiz yer tutan bilik mənbəyi kimi. XX əsrin 20-30-cu illərində muzeyşünaslıq elminin elmlər sisteminə daxil olması prosesinin təhlili. Bir sıra dünya alimlərinin “Muzeyşünaslıq” sahəsində tədqiqatların nəticələri. Muzeylərin nəzəri və təcrübi fəaliyyətində “Muzeyşünaslıq” elminin əhəmiyyəti.

Muzeyşünaslıq sosial informasiyaları toplayan, qoruyan və ötürülməsini öyrədən, təhlil edən elmi fənn kimi.

Mövzu 2: Elmlər sistemində muzeyşünaslığın yeri və rolu

Muzeyşünaslığın bir sıra elmlərlə inteqrasiyasının elmi-metodoloji əsaslarla anlaşılması mexanizmi. Muzeyşünaslığın humanitar elmlərlə əlaqəsinin elmi təhlili. Muzeyşünaslıq tarix elminin tərkib hissəsi kimi. Muzey pedaqogikasının formalaşmasında muzeyşünaslıq nəzəriyyəsinin rolu. Muzey işinin praktiki tərəfi olan bələdçilik fəaliyyətinin psixoloji aspektləri. Muzeyşünaslığın sənətşünaslıq, sosiologiya vəs. kimi elmlər sistemində yeri. Muzeyşünaslıq elminin tarixi və nəzəriyyəsi anlayışının elmi əsaslarla təhlili istiqamətləri. Bu haqda dünya alimlərinin elmi mülahizələri.

Mövzu 3: Muzeyşünaslıq elminin struktur elementlərinin əlaqəli təsnifatı

Muzeyşünaslığın bir elm kimi quruluşunun təhlili və öyrənilməsi. Muzeylər sosial institutlar kimi. Muzeyşünaslığın struktur elementlərinə daxil olan bölmələrin təhlili: 1.Muzeyşünaslığın ta-

rixi (tarixşünaslıq); 2.Muzeyşünaslığın nəzəriyyəsi; 3.Muzey mənbəşünaslığı; 4.Tətbiqi muzeyşünaslığın elmi-nəzəri əsasları.

Muzey və muzeyşünaslıq sahələrinin tam anlaşılmasında struktur elementlərin öyrənilməsi istiqamətləri. Muzeyşünaslığın strukturunun tərkib hissələrinin nəzəri və praktiki əlaqələrinin metodoloji əsasları.

Mövzu 4: Muzey tarixinin muzeyşünaslıq aspektindən tədqiqi

Muzeylərin yaranmasının tarixi səbəbləri. Müxtəlif tarixi şəraitlərdə muzeylərin fəaliyyəti və iş xüsusiyyətləri. Muzey işinin, şəbəkələrinin dövrlərə və dövlətlərə görə fərqli və oxşar cəhətləri. Mədəniyyət müəssisələrinə keçid muzeylərin yeni konseptual istiqaməti kimi. Elmi-tədqiqat müəssisələri içərisində muzeylərin özünəməxsus yaradıcılıq işi. Müasir tipli muzeylərin yaradılması səbəbləri. XIX əsrin sonu - XX əsrin əvvəllərində yeni muzey işinə keçid.

Muzey işində yeni paradiqmaların meydana gələrək formalaşmasının nəticələri muzeyşünaslığın evristikası kimi.

Mövzu 5:Muzeyşünaslığın ümumi nəzəriyyəsi

Muzeyşünaslıq nəzəriyyəsinin 4 tərkib hissəsi olan:

-Ümumi nəzəriyyə-muzeyşünaslığın obyektini, predmetini, metod və struktur elementlərini öyrənən bölmə kimi;

-Sənədləşdirmə nəzəriyyəsi-muzey fondlarının komplektləşdirilməsini, muzey əşyalarının metodoloji və metodiki seçiminin reallaşmasını və muzey toplusuna çevrilməsini öyrənən bölmə kimi;

-Elmi-fond işinin nəzəriyyəsi-fondlarda saxlanan əşyalar haqqında informasiyanı öyrənən sahə kimi;

-Kommunikasiya nəzəriyyəsi-elmi informasiya ötürülməsi spesifikasını öyrənən bölmə kimi;

II BÖLMƏ. “ARXİV” ANLAYIŞININ ELMİ-NƏZƏRİ TƏHLİLİ

Mövzu 6: Arxivlərin tarixi əhəmiyyəti

Arxivlərin əlaqələri. Böyük sivilizasiya yolu keçən xalqlarda arxiv anlayışı. Arxiv mədəniyyətinin muzey tarixindən önə keçməsi haqda mülahizələr. Yazılı mənbələr arxivlərin əsas mənbəşünaslıq əsərləri kimi. Arxiv mənbəşünaslığının elmi əsasları. Yazılı mənbələr, dövlət sənədlərinin tarixi dəyəri.

Assuriya padşahı Aşşurbanipalın qanunlar, məhkəmə hökmü və s. kimi sənədlərinin tarixi əhəmiyyəti. Midiya və Babilistandan tapılan sənədlər arxivlərin əsas mənbələrindən biri kimi. Yunan tarixçilərinin Misir arxivi ilə tanışlığı haqda. Solomonun sarayında yəhudi arxivinin olması haqqında elmi fərziyələr. Afina Akropolunda və məbədində mühüm dövlət sənədlərinin olması tarixi haqqında məlumatlar. Orta əsrlər İmperatorların saraylarında qorunan sənədlər e.ə. arxiv fəaliyyətini sübut edən mənbələr kimi.

Mövzu 7: Arxivlər elmi - tədqiqat müəssisəsi kimi

Arxiv fondlarında mühafizə olunan sənət əsərlərinin elmi araşdırılması istiqamətləri. Arxiv tədqiqatları muzey mənbəşünaslığının elmi əsası kimi. Forma və məzmuna görə fərqlənən muzey əşyasının mənşəyinin tapılmasında arxivlərin rolu. Arxivlər muzey mənbəşünaslığının mühüm informasiya mənbəyi kimi**.**

Tarixçi və arxivşünasların birgə fəaliyyət yaradıcılığının önə çəkilməsi. Onların maraqlarının və iş metodlarının qarşılıqlı şəkildə uzlaşması. Fənlərarası dialoqların yaradılması təyinatı. Tarixçi və arxivşünasların yaradıcılıq nəticələrinin və maraqlarının “harmonik birləşməsi”.

Mövzu 8: İdarə və müəssisələrin arxiv-informasiya sisteminin idarə edilməsi

İnformasiya sistemlərinin idarə edilməsi, informasiya texnologiyaları, funksional altsistemlər və onlarla əlaqədar mütəxəssislər arasında optimal qarşılıqlı fəaliyyət yaradan və həmçinin onların inkişafını təmin edən komponent kimi. İnformasiya sistemlərinin idarə edilməsi funksiyaları:

İşçi heyətinin idarə edilməsi;
İstifadəçilərin idarə edilməsi;
Operativ idarəetmə;
Keyfiyyətin idarə edilməsi;
Maliyyənin idarə edilməsi;
Təhlükəsizliyin idarəedilməsi.
Arxiv informasiya sisteminin 3 tərkib hissəsi:
1. İdarəetmə subyekti; 2. İnformasiya sistemi; 3.İdarəetmə obyekti
Arxiv informasiya sistemlərinin idarə edilməsi.

Mövzu 9: Muzeyşünaslığın inkişafında arxivlərin rolu

Muzeyşünaslıq tarixilik, nəzəriyyə, mənbəşünaslıq və tətbiqi sahələri özündə cəmləşdirən elm kimi. Nəzəri problemlərin araşdırılması və həlli prosesində tarixilik mənbələrindən və varislik ənənələrindən istifadə. Muzeyşünaslığın tədqiqinin kompleks xarakter daşıması. Yeni profilli muzeylərin yaranmasında muzeyşünaslığın əvəzedilməzliyi.

Elm sahəsində çalışan insanların təkcə mərkəzi arxiv idarələri ilə deyil, eyni zamanda bölgə arxivləri ilə də dialoqların qurulması yolları. Mötəbər muzeylərin arxivləri. Bölgələrdə fəaliyyət göstərən muzey arxivlərinin real vəziyyəti. "Muzey arxivi", "Muzey fondları" və "Muzey kitabxanası" arasında oxşarlıq və fərqlərin elmi-nəzəri dəqiqliklə təhlil edilməsi. Muzey arxivləri yaradılarkən muzey qarşısında tələblərin qoyulması.

"Muzeyşünaslıq" və "Arxivşünaslıq" elmlərinin inteqrasiya sərhədləri. Muzeyşünaslıq tədqiqatlarında digər elmlərin arxiv sənədlərindən istifadə edilməsinin labüd şərtləri.

Mövzu 10: Muzey arxivlərinin elmiliyi

Muzey əşyaları sosial informasiya mənbəyi kimi. "Muzey əhəmiyyətli əşya" və "muzey əşyası" anlayışlarının elmi təhlili. Muzey əşyası elmi mənbə və dəyərli tarixi, mədəni obyekt kimi. Cəmiyyətin mədəni-maarif məkanının genişlənməsi və müasir savadlı cəmiyyətin formalaşmasında arxivlərin əhəmiyyətli.

Arxivlərin kommunikativ funksiyaları. İnformasiya cəmiyyətinin formalaşması şəraitində arxiv idarələrinin qoruyucu xidmətlərinin möhkəmləndirilməsi. Arxivlərdə elmi-tədqiqat tələbatının artaraq gücləndirilməsi şəraitində istifadəçilər üçün xidmətlərin sistemləşdirilməsi.

III BÖLMƏ. ABİDƏ ANLAYIŞININ ELMİ TƏHLİLİ

Mövzu 11: Abidələrin funksiyaları

Abidələr insan tərəfindən yaradılan ən dəyərli fenomen kimi. Daşınan və daşınmaz abidələrin funksiyaları. Daşınan abidələrin (muzeylərdə, arxivlərdə, fondlarda, sərgilərdə və digər münasib yerlərdə) elmi təhlili, daşınmaz abidələrin elmi təhlili (arxeoloji və memarlıq abidələri olmaqla olduğu və inşa edildiyi yerlərdə olan) Sosial və ya tarixi biliklərin ötürülməsi funksiyası, ideoloji funksiya, dərk edilən (qnoseoloji) funksiya, kommunikativ funksiya, utilitar funksiya, abidələrin kompensator funksiyası (rekreativ), maarifləndirici funksiya, tənzimləyici funksiya. Bu funksiyaların hər birinin ayrı-ayrılıqda təhlili və araşdırılması.

Mövzu 12: Abidələrin elmiliyi

Tarixi əhəmiyyəti olan abidələrin elmiliyi. Qədim dövrlərdən başlayaraq abidələrin yaradılması səbəblərinin araşdırılması. Abidələr ölkənin, xalqın, bəşəriyyətin tarixi dəyəri kimi. Görkəmli şəxsiyyət və tarixi hadisələrin şərəfinə yaradılan heykəltəraşlıq və memarlıq əsərlərinin elmi dəyərinin təhlili. Heykəltəraşlıq fiquru kompozisiya kimi.

Abidələrin ucaldıldığı yerin seçim yolları. Abidələrin postament və ya görkəmli yerlərdə qoyulması səbəbləri. Xatirə əhəmiyyəti daşıyan abidələr haqda araşdırmalar. Abidələrin xarakterindən asılı olaraq onların ucaldılacaq yerlərində tənzimləmə işinin aparılması.

Mövzu 13: Abidələrin texnologiyası

Tarix və mədəniyyət abidələrinin mühafizəsi və mövcud vəziyyətinin monitorinqinin keçirilməsi. Mədəni irsin qorunması məqsədilə ictimai fəallığı və məsuliyyəti artırmaq üçün təşkil edilən yığıncaqlar haqqında. Abidələrin texnologiyasının öyrənilməsi mərhələləri. Müvafiq sahə üzrə araşdırmaların aparılması üçün mütəxəssislərin seçimi. Memarlar, arxeoloqlar, kimyaçı alimlərlə birgə elmi nəticələrin öyrənilməsi.

Hər bir abidənin hazırlanma texnologiyasını nəzərə alaraq bərpa işlərinin aparılması.

Mövzu 14:"Tarix və mədəniyyət abidəsi" anlayışı

Arxeoloji və memarlıq obyektləri, etnoqrafik, numizmatik, epiqrafik, antropoloji materiallar, tarixi hadisə və şəxsiyyətlərlə bağlı olan bina, xatirə yerləri. Əşyalar xalqın dini əqidəsi ilə bağlı olan və s. tarix və mədəniyyət abidələri kimi. Abidələr üzərində mülkiyyət hüququ, abidələrin qorunması, bərpası, əhəmiyyət dərəcələrinin təyin edilməsi və onlardan istifadə olunmasında Azərbaycan Milli Elmlər Akademiyasının iştirakı. Abidələrin əhəmiyyət dərəcəsi. Abidələrin qorunmasının dövlət təminatı.

Mövzu 15: Milli abidələrimizin müasir vəziyyəti

Azərbaycan xalqının mədəni irsi bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsi kimi. Xalqımızın çoxəsrlik tarixi keçmişindən yadigar qalmış tarix və mədəniyyət abidələrinin mühafizəsinin beynəlxalq əhəmiyyəti.

Azərbaycanın işğal altında olmuş ərazilərindəki arxeoloji abidələr, tarixi-mədəniyyət memarlıq abidələrinin vəziyyəti. Azərbaycanın işğaldan azad olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinin bərpası ilə əlaqədar aparılan işlərin xüsusiyyətləri. Qarabağ abidələrinə vurulan maddi-mənəvi ziyanın müəyyən edilməsi.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

Azərbaycan dilində

1. Kataloq. Azərbaycanın memorial-xatirə muzeyləri. (dərslik) Azərbaycan dilində. Tərtib: R.Ağayev, M.Manafova, A.Əlizadə, E.Qurbanova. B: Mars Print, 2009 il, 232 səh. 120 şəkil.
2. Qurbanova E., Dünya muzeyləri – Metodik tövsiyə xarakterli Kataloq. Bakı- 1995. (kiril əlif.) 145 səh., 2021-ci il təkrar nəşr (latın əlifbası ilə), Bakı-2021, 203 səh.
3. Qurbanova E. İncəsənət muzeyləri və milli müəyyənlik problemləri. "Qafqaz: Tarix, müasirlik və geosiyasi perspektivlər" beynəlxalq elmi konfransın tezisləri. Bakı-1998. "ELM" s.241-243.
4. Qurbanova E. Milli bədii təfəkkürün inkişafında incəsənət muzeylərinin rolu. Mədəniyyətin aktual problemləri. Elmi məqalələr toplusu. Bakı-2000. s. 87-93.
5. Qurbanova E. İncəsənət vasitəsilə bədii mədəniyyətin kütləyə təsirində muzeylərin əhəmiyyəti. Mədəniyyət dünyası jurnalı Bakı-2000. s. 127-133.
6. Qurbanova E.. Gələcək nəsillərin mədəniyyət sahəsində formalaşması günün vacib problemlərindən biri kimi. Mədəniyyət: Problemlər, perspektivlər (Elmi məqalələr toplusu) III Buraxılış, Bakı – 2002 s. 65-68.
7. Qurbanova E. Milli təhsil və milli incəsənətin əhəmiyyəti. Mədəniyyət: Problemlər, perspektivlər (Elmi məqalələr toplusu) III Buraxılış, Bakı - 2002 s. 53-56.
8. Qurbanova E.Muzeylər Milli irsin qoruyucusu və təbliğatçısı kimi. "Musiqi dünyası". Üzeyir Hacıbəyov "Leyli və Məcnun" 100, 1-2/35. 2008, s.224-226.
9. Qurbanova E. Muzeyşünaslığın bir elm kimi meydana gəlməsi. Mədəniyyət dünyası, elmi-nəzəri məcmuə, XV buraxılış, Bakı, ADMİU, 2008, s.303-307.

10. Qurbanova E.İncəsənət muzeyləri və sərgi salonları. Sosial-siyasi problemlər (elmi-nəzəri jurnal), Bakı, 2008, №2-3 (19-20) Bakı-2008, s.101-104.
11. Qurbanova E., Məlikov F.Tarixi yaşadan muzeylər və muzeyşünaslar.Sosial-siyasi problemlər (elmi-nəzəri jurnal), Bakı, 2009, №3 (23), s.155-160
12. Qurbanova E.. Tarix elminin muzeyşünas cəfakeşləri (Milli Azərbaycan Tarixi Muzeyinin materialları) Azərbaycan Arxeologiyası və etnoqrafiyası. Bakı 2010, 2, s. 164-168
13. Qurbanova E. Mədəni irsin mühafizəsi və muzeyşünaslığın problemlərinə dair. Mədəni müxtəliflik sosial-siyasi dəyər kimi.Kulturoloqların II milli forumu.Beynəlxalq elmi-praktik konfrans. Baku – "Elm"- 2010, s. 261-270.
14. Qurbanova E.Əlizadə A. "Muzeylərdə elmi-tədqiqat işinin təşkili və metodikası" Dərslik. Bakı – 2011, səh.271 (yenidən redaktə edilərək təkrar nəşr) Bakı-"Gənclik"-2015, 271 səh., Bakı-2017 (yenidən işləməklə təkrar nəşr)., 239 s.
15. Qurbanova E.H., Verdiyev E.Ə.. Azərbaycan təhsil sistemindəı İKT tətbiqi. Azərbaycan Dövlət Aqrar Universiteti. Qloballaşma şəraitində təhsil və elmin inkişaf problemləri. Beynəlxalq elmi-praktik konfransın tezisləri (03-05 Oktyabr 2011) Gəncə -2011. s.230-231.
16. Qurbanova E. "Tarix elminin müzeyşünas cəfakeşləri" s.327-331, Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf. Beynəlxalq konfrans materialları 21-22 dekabr 2012. ADMİU-nun 90 illik yubileyinə həsr olunur. Bakı – "Təknur" – 2012. səh.319-327
17. Qurbanova E. (ADMİU) Müasir muzey fəaliyyətinin elmi-tədqiqat işlərində yeniliklər. "Mədəniyyətlərarası dialoqda ənənəvi incəsənətin rolu". ADMİU – nun 90 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları. Bakı – 2012. s. 119-122.
18. Qurbanova E. Müasir muzey fəaliyyətində tarixiliyə elmi münasibət. Azərbaycan Milli Elmlər Akademiyası Milli

Azərbaycan Tarixi Muzeyi. II Respublika Elmi konfransının materialları. Bakı – 18.VI. 2012. S.123-130.
19. Qurbanova-Məlikova E. "Bədii mədəniyyətin inkişafında incəsənət muzeylərinin rolu" Monoqrafiya. Bakı, 2014, 160 səh.
20. Muzeylər haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı, 2000.
21. Muzeyşünaslıq (dərslik), Bakı, "Mars-Print", 2002, 439 səh.
22. Məlikova E. Azərbaycan Respublikası Muzey işi üzrə elmi-metodiki kabinənin yaranmasının tarixi. Təsviri və dekorativ-tətbiqi sənət məsələləri. № 1 (7) Bakı – 2011. s.73-77.
23. Məlikova E.İncəsənət muzeyləri və milli müəyyənlik problemləri. Müasir Dünya inteqrasiyası və müqavimət prosesləri. Azərbaycan dövlətçiliyinin 94 illiyinə və Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr edilən beynəlxalq elmi konfransın materialları. Bakı, Azərbaycan Universiteti, 9 iyun 2012-ci il. "Elm və təhsil" Bakı – 2012. s.316-321,
24. Məlikova E. "Azərbaycanda muzeylərin inkişafında İkt-nin rolu".Multikulturalizm prosesləri qloballaşma şəraitində.Beynəlxalq elmi-nəzəri konfransın materialları ADMİU-nun 90 illiyinə həsr olunur. Bakı – 2014.s.172-176.
25. Məlikova E. Tarix profilli muzeylərin yaranma səbəbləri.Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XVI Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı: ADMİU-nun mətbəəsi, 2017, s.272-275.
26. Məlikova-Qurbanova E. Muzeyşünaslıq elminin muzey işi ilə əlaqəli təhlili. "Muzeyşünaslığın tədrisi problemləri" II Respublika elmi konfransın materialları, Bakı – 2018,s.48-53
27. Məlikova-Qurbanova Ə. Azərbaycanda muzeyşünaslıq elminin formalaşmasında Milli Azərbaycan Tarixi Muzeyinin rolu (Milli Azərbaycan Tarixi Muzeyinin atxiv materialları əsasında) Milli Azərbaycan Tarixi Muzeyi – 2018. Toplu. Bakı, "Elm" nəşriyyatı, 2018, s.290-298.

28. Məlikova-Qurbanova E. “Muzeyşünasların nəzəri və təcrübi biliklərinin muzey vasitəsi ilə inkişafı” Bakalavr və magistr təhsil pilləsində təhsil alan tələbələr üçün metodiki vəsait. Bakı – “Elm”-2019, 106 səh.
29. Məlikova-Qurbanova E. XX əsrin ikinci yarısında (1950-1960-cı illər) Azərbaycanda muzey işində aparılan islahatlar. Azərbaycan muzeyi – 100. Muzeyşünaslıq kafedrası. Muzeyşünaslığın tədrisi problemləri III Respublika Elmi Konfransın materialları. Bakı – 2019, Səh.77-81.
30. Məlikova-Qurbanova E. Müasir muzey fəaliyyətində yeniliklər. AMEA Milli Azərbaycan Tarixi Muzeyi. “İstiqlal” muzeyinin 100 illiyinə həsr olunmuş “Muzey, arxiv və kitabxanalarda qorunan milli dəyərlərin tədqiqi, təbliği, mühafizəsi və bərpası” III Respublika Elmi Konfransının Materialları. Bakı – 18.06.2019, s. 156-162.
31. Məlikova-Qurbanova E. XX əsrin ikinci yarısında (1950-1960-cı illər) Azərbaycanda muzey işində aparılan islahatlar. Azərbaycan muzeyi – 100 Muzeyşünaslıq kafedrası, Muzeyşünaslığın tədrisi problemləri III Respublika Elmi konfransın materialları. Bakı – 2019, s.77-80.
32. Məlikova-Qurbanova E. Azərbaycan Milli Xalça Muzeyinin “Təsviri və dekorativ-tətbiqi sənət məsələləri” elmi toplusu. Muzeyşünaslığın inkişafında Azərbaycanın sənətşünas alimi Mürsəl Nəcəfovun rolu. səh-28-34.Bakı, Çaşıoğlu, 2019, 132 səh.
33. Məlikova-Qurbanova E. Muzey mənbəşünaslığı: tədqiqatlar və faktlar. Mədəniyyət Dünyası. Azərbaycan Dövlət XXXVIII buraxılış, Bakı, 2020. səh.77-81.
34. Məlikova (Qurbanova) E. Azərbaycan Muzeyşünaslığı (Monoqrafiya). I cild, Bakı “Elm”, 2021, 232 səh.
35. Məlikova (Qurbanova) E.. Azərbaycan Muzeyşünaslığı (Monoqrafiya). II cild, Bakı “Elm”, 2022, 464 səh.s.

Rus dilində

36. Архивы-жизненно необходимые пространства для развития исторической науки. Сборник статей: роль архивов в информационном обеспечении исторической науки: сборник статей /авт.-сост. Е.А.Воронцова; отв.Ред.В.Ю.Афиани, Ю.А.Петров. М.: Этерна, 2017.1000 с.
37. Бухерт В.Г.Московские архивы в 1812-1813 гг./В.Г.Бухерт Отеч.архивы. 1996., 423 с.
38. Вопросы истории музейное дело в СССР: Сб.науч.тр. М. 1962., 209 с.
39. Воронцова Е.А.Музей как базовый элемент информационной инфраструктуры исторической науки//Диалог со временем. № 49, 2014 (а). С.169-189.
40. Воронцова Е.А. «Роль музеев в информационном обеспечении исторической науки» (авт.-сост. отв.Ред. Л.И.Бородкин, А.Д.Яновский.- М., 2015)., 143 с.
41. Гарник В.Я. Очерки музейного дела Аз. ССР. Москва 1971., 401 с.
42. Гурбанова Э. Национальная культура как основа мировых культур. С.14-17.
43. Гурбанова Э. История создание и началный этап развитие АР научно- методического кабинета музейной работа. Musiqi dünyası. Bakı -2011. 123-129 s.
44. История музейного дела в СССР. М., 1957., 345 с.
45. “История архитектуры Азербайджана”,Гос.изд.литературы по строительству, архитектуре и строительным материалам, Москва, 1963. 435 с.
46. Курбанова-Меликова Э. «Профессиональная подготовка музееведов к музейному делу». Международный научный онлайн семинар «Актуальные проблемы современного музееведения: наука, образование, практика» Академии Художеств Узбекистана Национальный Институт

Художеств и дизайна Камолиддина Бехзода (на русском яз.)Ташкент-2021 (31 марта), стр. 62-65.
47. Курбанова-Меликова Э. «Подготовка музееведов для работы в Художественных музеях» Сборник материалов международной научно-практической – конференции Инновационные процессы в художественном образовании: стратегия , теория и практика развития. Академии Художеств Узбекистана Национальный Институт Художеств и дизайна Камолиддина Бехзода (на русском яз.) Ташкент-2021. стр.76-78.
48. Музееведение. Музей исторического профеля. М. 1988., 286 с.
49. Музееведение. Учебник. М.; 2009., 324 с.
50. Мейран П. Новая музеология / Museum.1985. № 148, 201 с.
51. Музейное дело в СССР: Сб.науч.тр.М. 1974, 411с.
52. Музееведение. Учебник для высшей школы. Т.Ю.Юреневна, М.2004, 445 с.
53. Меликова-Гурбанова Э. Кадровая подготовка специалистов-музееведов по изучению экскурсионного метода. Turizm və qonaqpərvərlik tədqiqatları . Tourist and hospitality studies. Beynəlxalq jurnal /İnternational journal li 4, Say 4, 2015 / Volume 4, Number 4, 2015 c. 281-285.
54. Меликова - Гурбанова Э.АГУКИ, «Наукаведческие понятия музееведения: факты и анализ» Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XV Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı. 02 may, 2016-cı il, c.307-313.
55. Меликова-Гурбанова Э. XX век: Начало и развитие мултикультурального общества Азербайджана в сфере науки и культуры “Multikulturalizm konsepsiyasının sosial-fəlsəfi və mədəni əsasları” mövzusunda respublika elmi-nəzəri konfransın materialları (09 dekabr 2016) Bakı 2016. s.69-71.

56. Меликова-Гурбанова Э. Музейное образование как музееведческая специальность. Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyası. Memarliq, şəhərsalma tarixi və bərpası. Toplu № 2 (16) 2018. s.128-132.
57. Проблемы преподавания дисциплины «Музееведение» в Азербайджане. Всероссийская научно-практическая конференция с международным участием «Тенденции и перспективы развития системы образования. Традиции и инновации» 14 декабря 2022 года. с. 232-240.
58. Очерки истории музейного дело в СССР. Сб.научных трудов.,Москва 1971. 239 с.
59. Основы философии науки: Учебное пособие для аспирантов /В.П.Кохановский и др.-Изд. 2-е –Ростов н/Д: Феникс, 2005., 304 с.
60. Разгон А.М.Место музееведение в системе наук // Музей и современность: Сб.науч.тр.М., 1986., 296с.
61. Равукович Д.А. Социальные и информационная система музея. М. 1984., 213 с.
62. Сафаралиева Г. Исторические памятники и топонимы Азербайджана. Библиография. Баку – 2016.-500 с.
63. Тверская Д.И.Музей как научно-исследовательское учреждение. Музейное дело в СССР. М.1974., 376 с.
64. Фигол Д. И Методика научной пропаганды и культурно-массовой и научно-просветительной работы музеев. М., 1974., 204 с.

Türk dilində

65. Melikova-Gurbanova E. Muzeçiligin Bilimsel Kavramlar Açısından Anlamı. Belgü. Ardahan Universiteti İnsani Bilimlər ve Edebiyat Fakültəsi Dergisi, Yil: 1 /Sayı: 3/ Bahar 2016 – Altı ayda bir yayımlanır. s. 105-117.

İngilis dilində

66. İCME, İNTERCOM & İKOM Azerbaijan Hybrid Joint Conference. Transforming Collecting Policies in Museums: the Need for Leadership and Societal Responsibility. 13-15 October 2021 Bakı, Azerbaijan. Proqramme. www/icomaz/az s.25

Elektron resursları

67. azerbaijans.com https://www. azerbaijans.com>cont.
68. http: //www.advantour.com/rus/azerbaijan
69. CIDOC Guidelines for Vestev Objekt İnformation: Forevord. 1995.P. 19-23. Электронный ресурс: httr://www/willpowerinfo.meby/co/uk/cidok/guide/ guidefor/htm (свободный доступ: дата обращения – 30.03.2017).
70. Эльфира Маликова. Елена Эльтс. Теоретическое осмысление запретительных музейных практик: вызовы и диверсификация как основной метод установления табу. Ikompraque 2022.qcon.mehttps:// ikompraque 2022.qcon.me/topics
71. Elfira Melikova – Qurbanova. Azərbaycan muzeylərində Nizami irsi. İnnovativ Texnologiyalar Beynəlxalq elmi-araşdırmalar jurnalı. Nömrə 19, 2021səh.75-93 (DOI: 10.30546/2616-4418.19.2021.75) http:www/ejsr.orq/Az_ Main_ Arxiv_19_ 2021. Aspx.
72. Ксения Колкунова. Лекция. 30 октября 2018 года. Культурный центр ЗИЛ. В рамках цикла «Табу.Ликбез» theoryandpractice.ru

https://theoryandpractice.ru>posts Откуда взялось понятие табу и почему она оказалось таким…

FƏNN ÜZRƏ SƏRBƏST MÖVZULAR

1. “Muzeyşünaslıq” anlayışı
2. Muzey mədəniyyət müəssisəsi kimi
3. Muzey elmi-tədqiqat müəssisələri kimi
4. Muzeylər maarifləndirmə müəssisəsi kimi
5. Muzeylər elmi-tədqiqat müəssisələri kimi
6. “Elm” anlayışının təhlili
7. Muzeyşünaslıq elminə dair yazılan ədəbiyyatlar
8. Milli muzeylərimizdə çalışan alimlər haqqında (1920-1930)
9. Milli muzeylərimizdə çalışan alimlər haqqında (1930-1940)
10. Milli muzeylərimizdə çalışan alimlər haqqında (1940-1950)
11. Milli muzeylərimizdə çalışan alimlər haqqında (1950-1960)
12. Milli muzeylərimizdə çalışan alimlər haqqında (1960-1970)
13. Milli muzeylərimizdə çalışan alimlər haqqında (1970-1980)
14. Milli muzeylərimizdə çalışan alimlər haqqında (1980-1990)
15. Milli muzeylərimizdə çalışan alimlər haqqında (1990-2000)
16. Milli muzeylərimizdə çalışan alimlər haqqında (2000-2010)
17. Milli muzeylərimizdə çalışan alimlər haqqında (2010-2020)
18. Tarix profilli muzey anlayışının təhlili
19. İncəsənət profilli muzey anlayışının təhlili
20. Texniki muzey anlayışının təhlili
21. Kompleks muzeylər anlayışının təhlili
22. Tibbi-Səhiyyə muzeylərinə dair
23. Bədii profilli muzeylər anlayışının təhlili
24. Memorial muzeylər anlayışının təhlili
25. Tarix-diyarşünaslıq muzeylərinə dair
26. Muzey və tarix
27. Muzeyşünaslıq elminin tarixinə dair
28. Muzey coğrafiyasına dair məlumat
29. Muzey və tamaşaçı anlayışının əlaqələri
30. İstiqlal muzeyinin tarixi haqqında
31. Milli Azərbaycan Tarixi muzeyinin tarixi
32. Azərbaycan Milli İncəsənət muzeyinin tarixi
33. C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin tarixi

34. N.Gəncəvi adına Azərbaycan Ədəbiyyatı muzeyinin tarixi
35. “Şirvanşahlar Sarayı Kompleksi” Dövlət Tarixi-Memarlıq Qoruq muzeyi haqqında
36. “İçəri şəhər Tarix-Memarlıq Qoruğu” haqqında
37. Azərbaycan Milli Xalça Muzeyinin tarixinə dair
38. 39.Azərbaycan Milli Teatr muzeyinin tarixinə dair
39. Muzey mərkəzinin fəaliyyəti
40. Milli Musiqi Mədəniyyəti muzeyinin tarixinə dair
41. Azərbaycanın tarix-diyarşünaslıq muzeyləri haqqında
42. Bakının Miniatür kitab muzeyi haqqında
43. Şuşa muzeyləri haqqında
44. Qarabağ muzeyləri haqqında
45. H.Əliyev Mərkəzində muzey fəaliyyətinə dair
46. “Arxiv” anlayışının elmi təhlili
47. “Muzey arxivi” anlayışı
48. Arxivlər tarixi mənbələrin qoruyucusu kimi
49. Antik dövrdə Qərbdə arxivlər haqqında məlumat
50. Qərbdə arxivlərin tarixinə dair
51. Orta əsrlərdə Qərbdə olan arxivlər haqqında məlumatlar
52. Şərqdə arxivlərin tarixinə dair
53. Orta əsrlərdə arxivlərin tarixinə dair
54. Müsəlman şərqində “arxiv mədəniyyəti” haqqında
55. Azərbaycanda yaradılan ilk arxiv haqqında məlumat
56. “Abidə” anlayışı haqqında elmi məlumatlar
57. Qarabağ abidələrinə dair
58. Şuşa abidələri haqqında ümumi anlayış
59. Bakı şəhərinin heykəltəraşlıq abidələrinə dair
60. Bakı-Abşeron memarlıq abidələrinə dair
61. Muzeylər tarixi-mədəniyyət abidələrinin qoruyucusu kimi

Çapa imzalanıb: 18.09.2024
Format: 60x84 1/4. Qarnitur: Times.
Həcmi: 6 ç.v.

ADMİU-nun mətbəəsində çap edilmişdir.

Ünvan: Bakı şəhəri, H . Zərdabi küç. , 39a
Telefon: (+994 12) 434-50-04